AYLIQ BÜLLETEN
Mart
2024-cü il

Azərbaycan Mikromaliyyə Assosiasiyası

AMFA

Azerbaijan Micro-finance Association

186-cı buraxılış

Bu nömrədə:

1. KOS Gender siyasəti üzrə faktların araşdırılması missiyası
2. "Biznes mühitinin yaxşılaşdırılması üzrə iqtisadi islahatlar və müasir çağırışlar" mövzusunda konfrans
3. "Gender Bərabərliyinə həsr edilmiş Açılış Zəngi"
4. "Qanunvericilikdə sahibkarlığın dəstəklənməsi ilə bağlı aparılan islahatların biznes mühitinə təsiri imkanları" mövzusunda ictimai müzakirə
5. Dayanıqlı Maliyyə Forumu
6. "Permakultura konsepsiyası" və "İqlim Dəyişikliyi" təlimlərinə start verildi
7. Assosiasiyalar üçün "Lobbiçilik, vəkillik və xarici kommunikasiyalar" təlimi
8. Lənkaranda Qadınlar Bizneslə Məşğul olur və Qadınlar Biznesə Liderlik edir təlimləri
9. MFC 26-cı İllik Konfransı
10. Üzvlər köşəsi
11. Peşəkar İnkişaf

AMFA-nın Missiyası

Mikromaliyyə qurumlarının potensialını gücləndirmək və mikro maliyyə icmasının və müştərilərinin maraqlarını təmin etmək üçün effektiv kollektiv fəaliyyətinin təşviq edilməsidir.

Mart 2024
Bakı, Azərbaycan

KOS Gender siyasəti üzrə faktların araşdırılması missiyası

06 mart 2024-cü il tarixində AMFA icraçı direktoru Jalə Hacıyeva Asiya İnkişaf Bankının (AİB) eksperti Lauren Klark ilə görüş keçirib.

Görüşün məqsədi (ı) genderə uyğun maliyyələşmə üçün yerli qanunvericilik və tənzimləməni nəzərədən keçirmək, və ən yaxşı təcrübələrdən istifadə etmək, (ıı) gender fəaliyyətinə və genderlə bağlı maliyyələşdirmənin təşviqinə dair hökümətin plan və proqramlarını nəzərdən keçirmək, (ııı) Kiçik və Orta Sahibkarların (KOS) gender inkluzivliyini və qadınların səlahiyyətlərinin artırılmasını təmin etmək, (ıv) KOS-lar arasında gender gündəliyinin həyata keçirilməsini gücləndirmək üçün əsas prioritet istiqamətləri müəyyənləşdirmək üçün faktları araşdırmaq idi.

Qeyd edək ki, AİB cari TY-9876 AZE “İdarəetmənin və Dövlət Sektorunun Təkmilləşdirilməsi (Alt proqram 2)” üzrə texniki yardım proqramının icrası çərçivəsində Azərbaycan Respublikası Kiçik və Orta Biznesin İnkişafı Agentliyinə (KOBİA) Kiçik və Orta Sahibkarlığın Gender Siyasəti üzrə texniki məsləhət dəstəyi göstərəcəkdir.

“Biznes mühitinin yaxşılaşdırılması üzrə iqtisadi islahatlar və müasir çağırışlar” mövzusunda konfrans

07 mart 2024-cü il tarixində AMFA icraçı direktoru, Jalə Hacıyeva Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın təşkilatçılığı ilə “Biznes mühitinin yaxşılaşdırılması üzrə iqtisadi islahatlar və müasir çağırışlar” mövzusunda konfransında iştirak edib.

Konfransda dövlət və hökumət nümayəndələri, komissiyanın işçi qruplarının rəhbərləri və üzvləri, eləcə də özəl sektorun təmsilçiləri, şirkət rəhbərləri iştirak ediblər.

Konfransın açılışını və moderatorluğunu İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) icraçı direktoru Vüsal Qasımlı edib. O bildirib ki, İİTKM iqtisadi islahatların rəqəmsal idarəetmə platforması olan “azranking.az” portalı vasitəsilə qlobal trendlərə uyğun şəkildə yaşıl və rəqəmsal transformasiyaya dəstək vermək, eyni zamanda, davamlı iqtisadi inkişafı stimullaşdırmaq məqsədi daşıyır.

Konfransda, həmçinin Azərbaycan qanunvericiliyinin təkmilləşdirilməsi, dövlət-biznes dialoqu, biznes mühitinin yaxşılaşdırılması, özəl sektorun investisiya mühitinin yaxşılaşdırılmasına dəstəyi, maliyyə xidmətlərinin inkişafı, ekoloji təhlükəsizlik, mübahisələrin alternativ həlli mexanizmləri və rəqəmsallaşma üzrə təşəbbüslər, daşınmaz əmlakla bağlı informasiya sisteminin yaradılması və digər mövzularda təqdimatlar edilib.

Konfransın sonunda biznes mühiti və beynəlxalq reytinqlər üzrə komissiyanın İşçi qruplarının rəhbərlərinin və qonaqların sərbəst çıxışları, qarşıda duran vəzifələr üzrə müzakirələr aparılıb.

“Gender Bərabərliyinə həsr edilmiş Açılış Zəngi”

7 mart 2024-cü il tarixində AMFA icraçı direktoru, Jalə Hacıyeva “Bakı Fond Birjası” (BFB) və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının (BMTİP) Azərbaycandakı nümayəndəliyinin keçirdiyi “Gender Bərabərliyinə həsr edilmiş Açılış Zəngi” mərasimində iştirak edib.

Tədbir “Bakı Fond Birjası”nın İdarə Heyətinin üzvü Mehman Ramazanovun açılış niqti ilə başlayıb. Daha sonra BMTİP rezident nümayəndəsinin səlahiyyətlərini yerinə yetirən Ms. Alessandra Roccasalvo, İsveçrə İnkişaf və Əməkdaşlıq Agentliyinin Əməkdaşlıq üzrə regional direktor müavini, missiya üzrə rəhbərin müavini cənab Alberto Hernandez, “Qadınların Maliyyə İmkanlarının Gücləndirilməsi” üzrə proqram analitiki Nani Bendeliani, Azərbaycan Respublikasının Mərkəzi Bankının Kapital bazarı fəaliyyətinə dair siyasət və nəzarət departamentinin nümayəndəsi Fəridə Vəliyeva, Azərbaycan Respublikasının Milli Depozit Mərkəzinin Maliyyə Departamentinin rəhbəri Səkinə Kərimova, AMFA icraçı direktoru Jalə Hacıyeva, “Finca Azerbaijan” şirkətinin Baş Kommersiya rəhbəri Şəhriyar Osmanov, PAŞA Kapital İnvestisiya şirkətinin nümayəndəsi Sunar İsmayılova, “Access Bank” Xəzinədarlıq və Beynəlxalq Əlaqələr şöbəsinin müdiri Dinara Javadova, “Yelo Bank” İnsan Resurslarının İdarə Edilməsi departamentinin rəhbəri Nigar İbadzadə, “ABB-İnvest İnvestisiya Şirkəti”nin nümayəndəsi Xalidə Sadıqova, BMTİP qlobal təşəbbüs proqramı olan Qadınların Səlahiyyətlərinin Gücləndirilməsi Prinsipləri/ WEPs üzrə ekspert Fidan Qasımova çıxış ediblər.

Tədbirin iştirakçıları “Gender Bərabərliyinə həsr edilmiş Açılış Zəngi” mərasimlərinin cəmiyyətdə gender bərabərliyinin inkişafına, işgüzar məkanda və korporativ səviyyədə qadınların səlahiyyətlərinin artırılmasına müsbət təsir göstərəcəyini bildiriblər.

Sonda qonaqların iştirakı ilə açılış zəngi çalınıb.

“Qanunvericilikdə sahibkarlığın dəstəklənməsi ilə bağlı aparılan islahatların biznes mühitinə təsiri imkanları” mövzusunda ictimai müzakirə

13 mart 2024-cw il tarixində AMFA icraçı direktoru, Jalə Hacıyeva Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) və Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının (ASK) dəstəyi, KOBİA yanında İctimai Şuranın təşkilatçılığı ilə “Bakı KOB evi”ndə “Qanunvericilikdə sahibkarlığın dəstəklənməsi ilə bağlı aparılan islahatların biznes mühitinə təsiri imkanları” mövzusunda ictimai müzakirədə iştirak edib.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvlərinin, aidiyyəti dövlət qurumlarının, biznes assosiasiyaların nümayəndələrinin və iş adamlarının iştirakı ilə keçirilən tədbirdə sahibkarlıq sahəsində mövcud qanunvericiliyə, bu sahədə aparılan islahatların biznes mühitinə təsirinə və nəzərdə tutulan yeniliklərə dair fikir mübadiləsi aparılıb, tədbir iştirakçılarının sualları cavablandırılıb. Tədbirdə KOBİA yanında İctimai Şuranın sədri Fərhad Qaraşov İctimai Şuranın ötən ilki fəaliyyəti barədə məlumat verib, Şuranın təşkilatçılığı ilə 2023-cü ildə 500 -dən çox sahibkarın iştirakı ilə müxtəlif mövzularda 7 ictimai müzakirənin, görüş və digər tədbirlərin keçirildiyini bildirib. 2024-cü ildə də KOBİA yanında İctimai Şura çərçivəsində KOB-ların iştirakı ilə bir sıra tədbir və görüşlərin keçirilməsi nəzərdə tutulur. Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili Milli Məclisin qəbul edilmiş qanunların və onlara edilən dəyişikliklərin sahibkarlara təsirini izləmək üçün mütəmadi olaraq iş adamları, biznes assosiasiyaları ilə görüşlər keçirdiyini, bugünkü ictimai müzakirənin də sahibkarların fikir və təkliflərini dinləmək üçün əlverişli platforma olduğunu bildirib.

KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov qeyd edib ki, sahibkarlıq fəaliyyəti zamanla ayaqlaşdığı üçün müasir çağırışlar və yeni tələblər qanunvericilikdə də öz əksini tapmalıdır.

Dayanıqlı Maliyyə Forumu və ESİ Gündəliyinin təşviqi

Bank Assosiasiyaları üçün Təlimçilərin Təlimi

06—07 mart 2024-cü il tarixlərində Gürcüstanın Tiblisi şəhərində Gürcüstan Milli Bankı (NBG), Dayanıqlı Bankçılıq və Maliyyə Şəbəkəsi (SBFN) və Beynəlxalq Maliyyə Korporasiyası (IFC) tərəfindən təşkil edilmiş "Dayanıqlı Maliyyə Forumu" və Gürcüstan Banklar Assosiasiyası (BAG), Dayanıqlı Bankçılıq və Maliyyə Şəbəkəsi (SBFN) və Beynəlxalq Maliyyə Korporasiyası IFC tərəfindən Bank Assosiasiyaları üçün təşkil olunmuş təlimçilər üçün təlimdə AMFA-nın üzvlərlə əlaqələr üzrə mütəxəssisi Elcan Həsənov iştirak etmişdir.

Tədbirdə dünyanın 15 ölkəsindən 200-dən çox iştirakçı iştirak edib. Forum Avropa İttifaqının, SBFN üzvü olan ölkələrin, müxtəlif regionların mərkəzi banklarının, yerli maliyyə institutlarının, beynəlxalq təşkilatların, özəl və dövlət sektorunun nümayəndələrinin, universitetlərin və digər maraqlı tərəflərin yüksək səviyyəli nümayəndələrini bir araya gətirən qlobal platforma rolunu oynamışdır.

“Permakultura konsepsiyası” və “İqlim Dəyişikliyi” təlimlərinə start verildi

Mart ayı ərzində Finance and Social Innovation Consulting (FSIC) “Gənc Aqrosahibkarlar” layihəsi çərçivəsində potensial Feyxoa Kooperativi üzvləri və Lənkaran rayonunda yaşayan fermerlər, o cümlədən gənclər üçün “Permakultura Konsepsiyası” və “İqlim Dəyişikliyi” mövzularında təlimlər keçirilmişdir.

Təlimlərin əsas məqsədi fermerləri dayanıqlı kənd təsərrüfatının ekosistemlərinin inkişafı ilə bağlı maarifləndirmək, yeni nəsil fermerləri permakultura konsepsiyası ilə tanış etmək,

iqlim dəyişikliyinin kənd təsərrüfatına mənfi təsirlərini müəyyən etmək, fermerlərin yaşayış vasitələrinə təsirini azaltmaq, istehsalın yaxşılaşdırılmasına dair məlumatlılığı artırmaq idi.



Assosiasiyalar üçün “Lobbiçilik, vəkillik və xarici kommunikasiyalar” təlimi

“Gələcək üçün Assosiasiyalar” (AFA) layihəsi çərçivəsində 04 mart 2024-cü il tarixində “Lobbiçilik, vəkillik və xarici kommunikasiyalar” mövzusunda seminar baş tutdu. Seminar zamanı Rəşid Məmmədov dövlət – özəl sektor arası dialoq və partnyorluq, ictimai vəkillik, ictimaiyyətlə əlaqələr və strateji kommunikasiyalar kimi mövzulara toxundu.

Seminarda Azərbaycan Respublikasının Kənd Təsərrufatı Nazirliyinin və 4 benefisiar assosiasiyaların əməkdaşları olmaqla 10 nəfər iştirak etmişdir.

İkinci layihə ili çərçivəsində benefisiar assosiasiyalar arasında görüşlərimiz başlamışdır. Görüşlərimizin məqsədi benefisiar assosiasiyalarımızı daha yaxından tanımaq, onlar barədə məlumatları, fəaliyyət istiqamətlərini, uğur hekəyələrini həmkar benefisiar assosiasiyalar ilə paylaşmaqdır.

Layihə benefisiarı Azərbaycan Mədəni İrs Sənətkarlığa Dəstək və Kreativ Sənaye Birliyinin dəvəti ilə 12 mart tarixində Atəşgah Məbədi Dövlət Tarix-Memarlıq Qoruğunda benefisiar assosiasiyalar arasında ilk həmkar görüşü keçirildi. Görüş zamanı Birliyin İdarə heyati tərəfindən Birlik haqqında təqdimat nümayiş etdirildi və Atəşgah Məbədi Dövlət Tarix-Memarlıq Qoruğunda ekskursiya təşkil olundu.

Həmkar görüşündə, Azərbaycan Respublikasının Kənd Təsərrufatı Nazirliyinin və 5 benefisiar assosiasiyaların əməkdaşları, 5 fakültə üzvləri və sənətkarlar olmaqla, 22 nəfər iştirak etmişdir.

Lənkaranda Qadınlar Bizneslə Məşğul olur və Qadınlar Biznesə Liderlik edir təlimləri

30 – 31 mart 2024-cü il tarixlərində Finance and Social İnnovation Consulting (FSİC) Lənkaran rayonunda yaşayan 16 sahibkar qadın üçün “Qadınlar Bizneslə Məşğul olur” və “Qadınlar Biznesə Liderlik edir” təlimləri həyata keçirmişdir.

Təlim əsasən qadın sahibkarların və liderlərin üzləşdiyi fərqli problemlərə və qadınların sahibkarlıqda innovasiyalara verdiyi töhvələrə fokuslanmışdır.

Təlimlərdə müxtəlif sahibkarlıq subyektlərini təmsil edən sahibkar qadınlar iştirak edib— dərzilik, un məmulatlarının istehsalı, konservləşdirmə, meyvə qurutma, əkinçilik, heyvandalıq və sair.

MFC 26-cı İllik Konfransı

Qarşıdan gələn **Polşa Mikromaliyyə Mərkəzinin (MFC) 26-cı İllik Konfransı 14 - 15 may 2024-cü il tarixlərində** Polşanın Krakov şəhərində keçiriləcək. Mikromaliyyə mənzərəsini yenidən formalaşdırmaq üçün nəzərdə tutulan bu transformativ tədbiri qaçırmayın.

Niyə iştirak etməlisiniz?

Sənaye liderləri ilə şəbəkə və tərəfdaşlıq imkanı əldə edəcəksiniz. Mikromaliyyənin miqrantlar, fermerlər və qadınlar da daxil olmaqla müxtəlif icmaları necə gücləndirdiyini kəşf edəcəksiniz. Avropa Bacarıqlar İli təşəbbüsü ilə uyğunlaşdırılmış bacarıqların inkişafı müzakirələrində iştirak edəcəksiniz. Həvəsləndiricii danışıqlarda iştirak edin və mikromaliyyənin gələcəyinin formalaşmasına fəal töhfə verin.

Yeniləmələr üçün bizi izləyin!

Ətraflı gündəlik, qeydiyyat məlumatları və maraqlı yenilikləri buradan əldə edə bilərsiniz: https://mfc.org.pl/ .

“İqtisadiyyatın və Cəmiyyətin Dayanıqlı İnkişafında Qadınların Rolu”

Üzvlər Köşəsi

“PAŞA Bank” “İqtisadiyyatın və Cəmiyyətin Dayanıqlı İnkişafında Qadınların Rolu” adlı beynəlxalq konfrans keçirib.

8 Mart - Beynəlxalq Qadınlar Gününə həsr olunmuş konfransda dəvət edilmiş Milli Məclisin, İqtisadiyyat Nazirliyinin, BMT İnkişaf Proqramının (BMTİP) və BMT Qlobal Sazişinin Azərbaycandakı nümayəndəliklərinin, Dünya Bankının, “PAŞA Bank”ın və başqa qurumların təmsilçiləri Azərbaycanda gender bərabərliyinin qorunması, lider qadınların ölkəmizin dayanıqlı inkişafında rolu və bu istiqamətdə onların dəyərli töhfələrini geniş müzakirə ediblər.

“PAŞA Bank”ın idarə heyəti sədrinin müavini Bəhruz Nağıyev konfransın açılış mərasimində çıxış edərək, “Bankımızın məqsədi qadın sahibkarlığına və iqtisadiyyatımızın dayanıqlı inkişafına yönəlik yeni biznes imkanlarına dair geniş fikir mübadiləsi aparmaqdır” - deyə, vurğulayıb.

Qeyd edək ki, “PAŞA Bank” tərəfindən keçirilən beynəlxalq konfransa 100-dən artıq iştirakçı qatılıb. Bank beynəlxalq təşkilatlar, dövlət və özəl sektor arasında dialoqu gücləndirərək, qadın sahibkarlığı və qadın liderliyinə maneələrin aradan qaldırılmasına bu kimi töhfələr verməyə davam edəcək.

TuranBank mikrokreditləşmədə rəqabətliliyin artımına ən çox töhfə verən bank oldu

Üzvlər Köşəsi

Martın 29-da Qubada Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) ilə birgə keçirilən III Aqrobiznesin İnkişafı Forumunda TuranBank mükafata layiq görülüb.

Belə ki, ölkəmizdə sahibkarlığın, xüsusilə də kənd təsərrüfatının inkişafına və maliyyələşməsinə daima dəstək olan, özəl sektorun inkişafına öz töhfəsini verən TuranBank "2023-cü ildə mikrokreditləşmədə rəqabətliyin artımına ən çox töhfə verən bank" nominasiyasında mükafat qazanıb.

Qeyd edək ki, artıq üçüncü ildir təşkil olunan forumun keçirilməsində əsas məqsəd ölkədə aqrobiznesin inkişafında rolu olan tərəfləri bir araya gətirməklə beynəlxalq və yerli təcrübəni, mövcud vəziyyəti, imkanları, o cümlədən aqrobiznesə maliyyə dəstəyi və dövlət güzəştlərindən daha çox fermer-sahibkarın faydalanması üçün lazım olan addımları müzakirə etməkdir.

Forumda Kənd Təsərrüfatı Nazirliyinin, İqtisadiyyat Nazirliyinin, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin, Azərbaycan Sahibkarlar Təşkilatları Milli Konfederasiyasının rəhbər şəxsləri, nazirliklərin tabeli qurumlarının, Mərkəzi Bankın, ölkədə fəaliyyət göstərən bankların, həmçinin yerli və beynəlxalq təşkilatların nümayəndələri iştirak ediblər.

Ölkəmizdə kənd təsərrüfatının inkişafı üçün innovativ məhsullar təqdim edən və sahibkarlığın inkişafına daima dəstək göstərən TuranBank bundan sonra da Aqrar Kredit və İnkişaf Agentliyi, Sahibkarlığın İnkişafı Fondu və İpoteka və Kredit Zəmanət fondu ilə əməkdaşlığını aktiv şəkildə davam etdirəcək.

Peşəkar İnkişaf

AMFA üzvləri və tərəfdaşları Frankfurt School 2023 -cü il üzrə e-tədris proqramlarına endirim edir!!!

Frankfurt School of Finance & Management

German Excellence. Global Relevance.

Məmnunluqla bildirmək istərdik ki, AMFA-nın Frankfurt School ilə tərəfdaşlıq müqaviləsi yenilənmişdir! Bu tərəfdaşlıq AMFA üzvlərinə beynəlxalq təhsil imkanlarını araşdırarkən daha çox üstünlük əldə etməyə imkan verəcək!

Bütün proqramlar üçün https://www.fsd/e-Campus-da AMFA üzvləri üçün 10% and 5 % endirim!!!

Kodunuzu əldə etmək üçün member_services@amfa.az ilə əlaqə saxlayın



Daha ətraflı məlumat üçün keçiddən istifadə edin: Frankfurt-school

Ekspert e-tədris kursları cədvəli üçün növbəti səhifəyə baxın:

Frankfurt Biznes Məktəbində 2023

Maliyyə Xidmətləri	ECTS	Dil	Ödəniş	Erkən qeydiyyat üçün ödəniş
Microfinance (New version)	3	EN, FR	900 EUR	700 EUR
Islamic Microfinance	3	EN	900 EUR	700 EUR
Agricultural Finance	3	EN, FR, TR	900 EUR	700 EUR
SME Finance	6	EN, FR	1,550 EUR	1,350 EUR
Digital Finance	6	EN, FR	1,550 EUR	1,350 EUR
Financial Inclusion Policy	6	EN	1,550 EUR	1,350 EUR
Microinsurance	6	EN	1,550 EUR	1,350 EUR
ESG & Impact Investing	6	EN	1,550 EUR	1,350 EUR

Yaşıl Maliyyə*	ECTS	Dil	Ödəniş	Erkən qeydiyyat üçün ödəniş
Climate & Renewable Energy Finance	6	EN	1,700 EUR	1,485 EUR
Climate Adaptation Finance	6	EN	1,700 EUR	1,485 EUR
Sustainable Finance	6	EN, DE	1,700 EUR	1,485 EUR
Agricultural Finance (New version)	3	EN, FR, TR	900 EUR	700 EUR
Financing NDCs	3	EN, FR	900 EUR	700 EUR
ESG & Impact Investing	6	EN	1,700 EUR	1,485 EUR

Risklərin təhlili	ECTS	Dil	Ödəniş	Erkən qeydiyyat üçün ödəniş
Risk Management	6	EN, ES, FR	1,550 EUR	1,350 EUR
Financial & Managerial Accounting	6	EN	1,550 EUR	1,350 EUR
NPL Management	6	EN	1,550 EUR	1,350 EUR
Risk Management, Corporate Governance & Compliance	6	EN	1,550 EUR	1,350 EUR

Digər onlayn proqramlar	ECTS	Dil	Ödəniş	Erkən qeydiyyat üçün ödəniş
Master of Leadership in Sustainable Finance	60	EN	17,500 EUR	N/A
Diploma in Financial Inclusion	20	EN	7,890 EUR	6,706.5 EUR
Diploma in Green Finance	20	EN	7,890 EUR	6,706.5 EUR

Azərbaycan Mikromaliyyə Assosiasiyası

Azerbaijan Micro-finance Association

www.amfa.az

@AMFA.Azerbaijan

@AMFAAzerbaijan

@AMFA

@amfaaz

+994 12 437 16 45

AZ1065, Azərbaycan, Bakı şəhəri, Cəfər Cabbarlı küçəsi 44, Kaspian Plaza 1, 5-ci mərtəbə